1_Layout 1 14.09.2020 11:33 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 17 (583)

15 sentyabr 2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# İlham Əliyevin milli maraqlara söykənən qətiyyət nümayişi

## *Prezident istənilən dövlət başçısı, istənilən diplomatla müzakirələrdə xalqı narahat edən bütün məsələləri qaldırır, həqiqətləri səsləndirir*

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "İlham Əliyevin milli maraqlara söykənən qətiyyət nümayişi" başlıqlı məqaləsinin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Tarixin bütün dövrlərində hər bir dövlətin yüksəlişində siyasi liderlərin çox böyük rolu olub. Dövlət idarəçiliyində yüksək səriştə, milli maraqların hər şeydən üstün tutulması, qətiyyətlilik və prinsipiallıq liderlərin fəaliyyətinin ana xəttini təşkil edib.

Son 17 ildə dövlət başçısı kimi daim milli maraqlar naminə tam müstəqil siyasət yürüdən, hər zaman güclü diplomat keyfiyyətləri ilə beynəlxalq nüfuzunu yüksəldən, qətiyyəti, prinsipiallığı, humanizm prinsiplərinə sadiqliyi ilə xalqın alternativsiz liderinə çevrilən cənab İlham Əliyev də belə siyasətçilərdəndir. Dünyanı cənginə almış pandemiya ilə mübarizə dövründə, qlobal böhranın davam etdiyi zamanda Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyət, günümüzün reallıqları bunu bir daha təsdiqləyir.

### Öz gücünə, iqtisadi qüdrətinə arxalanan ölkə

Bu gün dünyada olduqca gərgin, ziddiyyətli və qarışıq proseslərin getdiyi, qlobal trendlərdə qeyri-müəyyənliyin hökm sürdüyü mərhələdə cənab İlham Əliyev həm müstəqil siyasətini davam etdirir, həm də dövlətin böhrandan az itki ilə çıxması üçün bütün imkanları səfərbər edir. Elə bunun nəticəsidir ki, Azərbaycan pandemiya ilə mübarizədə müsbət dinamika əldə edən ölkələr sırasındadır.

Prezidentin həyata keçirdiyi iqtisadi islahatlardan əldə edilən dividendlər isə qlobal böhranın ölkə iqtisadiyyatının ciddi tənəzzülə uğramasının qarşısını almaqdadır. Digər ölkələrlə müqayisədə Azərbaycan iqtisadiyyatının 7 ayda cəmi 2,8 faiz azalması bu reallığı əks etdirir. Məhz bu durum Azərbaycanın postpandemiya dövrü üçün yeni iqtisadi yüksəliş proqramlarının hazrlanmasına əlverişli zəmin yaradır.

Əlbəttə ki, bütün bunlar Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir. Dövlət qlobal böhran dövründə heç bir ölkədən, maliyyə qurumundan dəstək almadan həm xalqın sağlamlığının qorunması, həm də sosial durumunun yaxşılaşdırılması istiqamətində öz gücünə tədbirlər görür.



Cənab İlham Əliyevin həyata keçirdiyi bu siyasət beynəlxalq səviyyədə təqdir edilir. BMT, ÜST, Qoşulmama Hərəkatı və Türk Şurasının, İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətləri Azərbaycan Prezidentinin qətiyyətli, humanizm prinsiplərinə əsaslanan siyasətini nümunəvi addım kimi dəyərləndirirlər.

### Milli maraqların müdafiəçisi, liderlik örnəyi

Azərbaycan Prezidentinin böhran şəraitində həyata keçirdiyi siyasət bununla yekunlaşmır. Bütün dövrlərdə olduğu kimi, Azərbaycanın milli maraqlarına təsir edən hər bir məsələni xüsusi nəzarətində saxlayan, bununla əlaqədar istənilən ölkə, istənilən beynəlxalq qurum qarşısında məsələ qaldıran və onların həllinə nail olan, milli maraqları qətiyyətlə, xüsusi prinsipiallıqla müdafiə edən cənab İlham Əliyev siyasətinə həmişə sadiqlik nümayiş etdirir. Ölkə ictimaiyyəti İlham Əliyevin milli maraqlar naminə ciddi addımlar atdığına və istənilən dövlət başçısı ilə müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmədiyinə daim şahidlik edir. Bu da, əlbəttə ki, hər kəsdə fəxarət hissi yaradır.

Son bir neçə ayda Prezidentin bu istiqamətdəki prinsipial mövqeyi, qətiyyətli addımları, diplomatik bacarığı beynəlxalq birliyə növbəti mesaj oldu. Hər kəs bir daha əmin oldu ki, İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll istiqamətində irəli sürdüyü prinsiplər dəyişməyəcək.

Avqustun 12-də Pusiya Prezidenti Vladimir Putinlə telefon danışığı, sentyabrın 2-də Yunanıstanın, sentyabrın 7-də isə İran İslam Respublikasının ölkəmizə təyin etdikləri yeni səfirlərin etimadnaməsini qəbul edərkən İlham Əliyevin səsləndirdiyi həqiqətlər, qətiyyətli fikirlər də deyilənləri təsdiqləyir.

Öncə Prezident münaqişənin həllində vasitəçilik missiyası həyata keçirən ölkənin işğalçı Ermənistanı silahlandırmasına ciddi etirazını bildirərək xalqın haqlı narazılığını rusiyalı həmkarının diqqətinə çatdırdı. Eyni zamanda Rusiyadan çıxarılan hərbi yüklərin öz ölkələrinin hava məkanından daşınmasına razılıq verən tərəfdaş ölkələrə mesaj verdi - Azərbaycan hər şeydən xəbərdardır.

Yunanıstanın ölkəmizə yeni təyin olunmuş səfiri Nikolaos Piperiqkosun etimadnaməsini qəbul edərkən isə cənab İlham Əliyev həm iki ölkə münasibətlərinin dünəni, bu günü və faktiki tam dayanmış hala qədər keçdiyi yola dair bütün məqamlara aydınlıq gətirdi, həm də Azərbaycanın tərəddüd etmədən hər zaman Türkiyənin yanında olduğunu bəyan etdi.

İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş yeni elçisi Seyid Abbas Musəvi ilə görüşdə isə İlham Əliyev terrorçu Ermənistanın İslam dininə qarşı həyata keçirdiyi vandallıqları səfirin diqqətinə çatdırdı. Prezident dedi ki, ermənilər Azərbaycana məxsus tarixi-dini abidələri dağıdıb, dini abidələri təhqir ediblər. İşğal edilmiş ərazilərdə məscidlər ermənilər tərəfindən dağıdılıb və bəzi məscidlərdə hətta onlar heyvan saxlayırlar. Bu çirkin əməlləri əks etdirən bir çox video və fotosənədlər, sübutlar var.

Təbii ki, bu, təkcə Azərbaycana qarşı yox, bütün müsəlman dünyasına qarşı edilən cinayətdir və bəzi tərəfdaş dövlətlərin terrorçu, faşist xislətli Ermənistana dəstək olması Azərbaycan xalqında haqlı narazılıqlar yaradır.

Ancaq hər zaman olduğu kimi, Azərbaycan İslam həmrəyliyinin möhkəmləndirilməsi işinə öz töhfəsini verir və böyük səylər göstərir. Prezident də bəyan etdi ki, Azərbaycan İslam aləminin birləşməsi və bəzi ölkələr arasında mövcud olan problemlərin həlli istiqamətində hər zaman öz əlavə səylərini göstərməyə hazırdır.

Bütün bunlar təsdiq edir ki, cənab İlham Əliyev milli maraqlar naminə ciddi addımlar atır və istənilən dövlət başçısı, istənilən diplomatla müzakirələrdə Azərbaycan üçün ümdə sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmir.

### Hər zaman ön cərgədə

Həm ölkə daxilində gedən proseslər, həm də Azərbaycanın dünya ölkələri ilə ikitərəfli və çoxformatlı əlaqələrinin daim genişlənməsi deməyə əsas verir ki, cənab İlham Əliyevin indiyədək apardığı və bu gün də davam etdirdiyi siyasi kurs düzgün istiqamətdədir. Son 17 il ərzində görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir.

Bu gün Azərbaycan bölgədə təhlükəsizlik və davamlı iqtisadi imkanlara malik ölkə kimi çıxış edir. Rəsmi Bakının siyasi iradəsi, təşəbbüskarlığı, ölkəmizin iqtisadi gücü təkcə Azərbaycan üçün yox, region üçün tənzimləyici və lokomotiv funksiyasını yerinə yetirir. Məhz bu siyasi kurs Azərbaycanı dünyada etibarlı tərəfdaşa çevirib.

**Azərbaycanın son illərdə beynəlxalq imicinin yüksəlməsi, respublikamızın ən ali səviyyəli tədbirlərdə ön cərgədə iştirakı, qlobal miqyasda ölkəmizin rəyi ilə hesablaşılması və digər belə qürurverici olaylar, əlbəttə ki, hansısa təbii proseslərin nəticəsi deyil. Bu nailiyyətlər birbaşa olaraq cənab İlham Əliyevin nümayiş etdirdiyi əzmkarlığın, rəhbərlik qabiliyyətinin, yüksək diplomatik bacarığının, qətiyyətli siyasətinin məntiqi nəticəsidir.**

## Azərbaycan Respublikası Prezidentinin reytinqi

*Sosial Tədqiqatlar Mərkəzinin "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatı çap edilib. Hesabat 2020-ci ilin birinci rübünü-yanvar-mart aylarını əhatə edir.*

*Respondentlərin Prezidentə və hakimiyyətin hər üç qoluna (qanunvericilik, məhkəmə və icraedici) münasibətini öyrənmək məqsədilə bu qurumlara etibarlılıq öyrənilib. Belə ki, respondentlərin mütləq əksəriyyəti Prezidentə etibar etdiyini bildirib.*

*Prezidentə "Tam etibar edirəm" deyənlər respondentlərin mütləq çoxluğunu (90.8%) təşkil edib.*

*Bundan əlavə, respondentlərin mütləq əksəriyyəti tərəfindən ölkə başçısının ordu quruculuğu və Silahlı Qüvvələrin modernləşdirilməsi (96%) və xarici siyasət (95%) sahəsindəki fəaliyyəti yüksək qiymətləndirilib.*

*Ümumilikdə isə respondentlərin mütləq əksəriyyəti (92.8%) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyasından razıdır.*

# BAKININ ERMƏNİ-BOLŞEVİK İŞĞALINDAN AZAD EDİLMƏSİNDƏN 102 İL ÖTÜR

**15 sentyabr 1918-ci il. Azərbaycan tarixinə ən şərəfli və qürurverici günlərdən biri kimi yazılmış məhz bu tarixdə Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakını erməni-bolşevik işğalından azad edib. 102 il əvvəl baş verən bu hadisə nəticəsində həm ölkəmizin müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.**

1918-ci il mayın 28-də Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, Bakı və ətraf rayonlar hələ də erməni-bolşevik işğalı altında idi. Belə olan halda, Azərbaycanın dövlət müstəqilliyini təsəvvür etmək çox çətin görünürdü. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə hələ tanınmayan gənc dövlətimizin isə ərazi bütövlüyünü təmin etmək imkanları yetərincə deyildi. Belə bir şəraitdə özünün çox ağır durumuna rəğmən Osmanlı Türkiyəsi Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusunu Azərbaycana göndərdi. Avropa dövlətlərinin türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etməsinə və müxtəlif yollarla təzyiqlər göstərməsinə baxmayaraq, qardaş köməyini əsirgəməyən, ölkəmizi tək qoymayan Osmanlı Türkiyəsi 1918-ci ilin avqust-sentyabr aylarında öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi. Sentyabrın 15-də Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu qarşısına qoyduğu missiyanı uğurla başa çatdıraraq, Bakını işğalçılardan təmizləməklə Azərbaycan dövlətçiliyinə qardaş töhfələrini verdi, Azərbaycan xalqını darda qoymadı.



NURU PAŞA



Tarix elmləri doktoru, professor Anar İsgəndərovun bu şanlı hadisə ilə əlaqədar yazdığı və tarixi faktlara əsaslanan məqaləsində maraqlı məlumatlar verilib: "... Sentyabrın 15-də döyüşlər səhər saat 05:30-da başlandı. Bütün qüvvələrin əsas vəzifəsi kimi Bakının ələ keçirilməsi müəyyənləşdirildi. Səhər saatlarında bütün istiqamətlərdə başlanan hücum öz uğurlu nəticəsini verdi. Qafqaz İslam Ordusunun qarşısının alınmasının qeyri-mümkünlüyünü görən "Sentrokaspi" rəhbərliyi danışıqlara başlamağı qərara aldı. Saat 10:30-da "Sentrokaspi" ordusunun qərb cəbhəsinin komandanı üzərində ağ bayraq asılan avtomobillə 5-ci diviziyanın qərargahına yaxınlaşdı...

... Bakı azad edilərkən 17 erməni, 9 rus, 10 gürcü zabiti, 1151 erməni, 383 rus, 4 ingilis və 113 nəfər müxtəlif millətdən olan əsgər əsir götürüldü.

Təkcə avqustun əvvəllərindən sentyabrın 15-dək Bakı uğrunda gedən döyüşlərdə 5-ci Qafqaz diviziyası 1130-dək şəhid vermişdir. Ümumiyyətlə, Qafqaz İslam Ordusu iyunun ortalarından sentyabrın 15-dək Azərbaycanın azadlığı uğrunda döyüşlərdə dörd mindən çox əsgər və zabit şəhid vermişdi. Bu döyüşlərdə Azərbaycan könüllü dəstələrinin də itkiləri kifayət qədər idi".

Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi.

Azərbaycan hökumətinin başçısı Fətəli xan Xoyski Bakının azad edilməsi münasibətilə Nuru paşaya yazırdı: "Cəsur türk əsgərlərinin Azərbaycanın baş kəndi olan Bakını düşməndən təmizləməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

Türk ordusunun Bakını bolşevik-daşnak işğalından azad etməsi şəhərdə əsl bayrama səbəb oldu.

Möhtəşəm və tarixi qələbədən iki gün sonra, sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürüldü.

Amma Antanta dövlətlərinin Osmanlı Türkiyəsinə təzyiqi getdikcə daha da artırdı. Ona görə də qısa müddətdən sonra türk qoşunları Bakını tərk etməli oldular.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir.

**Aradan uzun illər keçməsinə baxmayaraq, Türkiyə ordusu tərəfindən göstərilən qardaşlıq köməyi heç vaxt unudulmayacaq, Azərbaycan xalqı tərəfindən daim minnətdarlıq hissi ilə xatırlanacaq.**

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏDƏ ŞƏXSİ HEYƏTİN XİDMƏT ŞƏRAİTİ VƏ ƏHVAL-RUHİYYƏSİ YÜKSƏK SƏVİYYƏDƏDİR

**Daxili Qoşunların hərbi hissələrinin xidməti-döyüş fəaliyyəti və şəxsi heyətin nümunəvi xidməti "Əsgər" qəzetində daim işıqlandırılır. 12318 saylı hərbi hissəyə ilk xidməti ezamiyyətim hərbi hissənin bugünkü həyatı barədə məqalə hazırlamaq məqsədi daşıyırdı. İlk olaraq, hərbi hissədə aparılmış abadlıq və quruculuq işləri diqqətimi cəlb etdi.**

Hərbi hissə komandiri polkovnik-leytenant Emil Rüstəmov hərbi hissənin ötən dövrdə fəaliyyəti və şəxsi heyətin qarşısında dayanan vəzifələrdən söz açaraq dedi: "Ərazi bütövlüyümüz uğrunda döyüşlərdə hərbi hissənin bir qrup hərbi qulluqçusu iştirak etmiş və şəhidlik zirvəsinə ucalmışdır. 1992-1994-cü illərdə erməni işğalçılarına qarşı şiddətli döyüşlərin getdiyi dövrdə hərbi hissə ön cəbhəyə şəxsi heyətin hazırlanıb göndərilməsi, döyüşən hissələrin müxtəlif növ təminatı, ictimai təhlükəsizliyin qorunması kimi vəzifələri yerinə yetirmişdir. Qazanılmış zəngin təcrübə, möhkəmləndirilən potensial hərbi hissənin xidməti fəaliyyətini xarakterizə edən əsas cəhətlərdəndir".









Polkovnik-leytenant E.Rüstəmov qeyd etdi ki, hərbi hissənin şəxsi heyəti zona bölgəsi üzrə ictimai qaydaların qorunmasını və ictimai təhlükəsizliyi təmin edir, qarşıya qoyulmuş istənilən tapşırığı icra etməyə hazırdır.



Şəxsi heyətin mənəvi-psixoloji durumu ilə bağlı söhbəti hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Nəriman İsayevlə davam etdirdim. O, bu istiqamətdə bütün zəruri tədbirlərin həyata keçirildiyini dedi: "Hərbi hissənin maddi-texniki təchizatı, sosial-məişət şəraiti günü-gündən daha da yaxşılaşmaqdadır. Görülən bütün tədbirlər şəxsi heyətin müsbət mənəvi-psixoloji durumunun, eləcə də yüksək döyüş ruhunun formalaşmasına təkan verir".

Hərbi hissə ilə daha yaxından tanış olmaq üçün tərbiyə bölməsinin rəisi-baş təlimatçı mayor Bilal Hacıyevlə birlikdə xidmət sahələri və bölmələrdə olduq.

Şəxsi heyət həm məşğələlər, həm də təlimlərdə fəallıq göstərir, xidməti vəzifələrinə məsuliyyət və diqqətlə yanaşır.

### Çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan xüsusi təyinatlılar

Yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən xüsusi təyinatlı bölmə cari ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hərbi hissənin bölmələri arasında birincilik qazanıb. Nailiyyətləri ilə fərqləndiyinə görə bölmənin şəxsi heyəti hərbi hissə komandiri tərəfindən fərmanla mükafatlandırılıb.

"Yarasa" şərti adı verilmiş xüsusi təyinatlı bölmənin şəxsi heyətinin əsas fəaliyyəti bölgədə ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir. Bölmənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir.

Xüsusi təyinatlı dəstənin komandiri polkovnik-leytenant Anar Rizvanov vəzifə borclarından irəli gələn tələblərdən danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq prosesləri davamlı olaraq keçirilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı təkmilləşdirilir.

Hərbi hissədə olduğum zaman xüsusi təyinatlı bölmənin şəxsi heyəti xüsusi-taktiki təlimlərə cəlb olunmuşdu. Polkovnik-leytenant A.Rizvanov bildirdi ki, yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Praktiki məşğələlərə üstünlük verildiyini deyən komandir xüsusi təyinatlı bölmənin şəxsi heyətinin ayda 1 dəfə olmaqla 2-3 günlük "Dəstə reyd fəaliyyətində" mövzusunda xüsusi-taktiki təlimlərə cəlb olunduğunu qeyd etdi.

Polkovnik-leytenant A.Rizvanov təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunduğunu vurğuladı. Tabeliyindəki hərbi qulluqçuların məşğələlərdəki fəallığını onların müsbət mənəvi-psixoloji keyfiyyətləri ilə əlaqələndirdi. Bildirdi ki, bölmənin daim döyüşə hazırlığının qorunub saxlanılmasında aparılan tərbiyə işinin rolu böyükdür. Bu baxımdan dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elgün Mirzəliyevin fəaliyyəti danılmazdır.

Mayor E.Mirzəliyevin sözlərinə görə, bölmədə tərbiyə işi şəxsi heyətin Vətənə sevgi və sədaqət, Azərbaycan Respublikasının qanunlarına, hərbi andın, hərbi nizamnamələrin tələblərinə sözsüz riayət, komandir və rəislərə hörmət etmək ruhunda tərbiyə edilməsinə əsaslanır. Həmçinin, hərbi qulluqçulara Vətənimizin düşmənlərinə nifrət və nəyin bahasına olursa-olsun, torpağımızı müdafiə etməyə hazır olmaq hissləri aşılanır. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının artırılması, qarşıya çıxan tapşırıqların yerinə yetirilməsinə hər an hazır olmaları diqqət mərkəzində saxlanılır.

Polkovnik-leytenant A.Rizvanov şəxsi heyət arasında nümunəvi xidməti, nizam-intizamı, yüksək döyüş hazırlığı, eyni zamanda, təcrübəsi və fəallığı ilə seçilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuşlar Orxan Əhmədov və Vüsal İbadlının, əsgər Taleh Hüseynovun adlarını çəkdi.

### Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim üzərimizə böyük məsuliyyət düşür

Hərbi hissənin möhkəm nizam-intizamı, yüksək döyüş hazırlığı ilə fərqlənən, kapitan Mustafa Nəzərovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsi qarşıya qoyulmuş bütün tapşırıqların öhdəsindən layiqincə gələrək, bölgədə ictimai təhlükəsizliyin qorunub saxlanılmasında yaxından iştirak edir.

Sözsüz ki, əldə olunan nailiyyətlərdə bölmə komandirinin bilik və bacarığı, peşəkarlığı, işgüzarlığı mühüm rol oynayır.

Kapitan M.Nəzərov bildirdi ki, şəxsi heyət üzərinə düşən vəzifələri uğurla yerinə yetirməklə bərabər, döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün daima öz üzərində çalışır. Onun sözlərinə görə, hərbi qulluqçular keçirilən həm nəzəri məşğələlərdə, həm də praktiki təlimlərdə fəallıq nümayiş etdirirlər. Bu sahədə kifayət qədər təcrübəsi olanlar xidmətə yeni qəbul olunmuş hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına köməklik göstərirlər.

Bölmənin döyüş hazırlığını yüksəldən əsas amillər kimi şəxsi heyətin döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsini, sağlam mənəvi-psixoloji durumun olmasını, hərtərəfli təminatın mövcudluğunu qeyd edən komandir hər zaman qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə hazır olduqlarını bildirdi.

Qeyd edək ki, ölkəmizdə tətbiq olunan karantin rejimi təbirləri zamanı bölmənin şəxsi heyəti daxili işlər orqanları ilə birlikdə Bakı şəhəri, Salyan və Kürdəmir rayonlarında post-patrul xidmətinin aparılmasına cəlb olunub.

Bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Samid İbayev vurğuladı ki, xidmətin uğurlu təşkilini, şəxsi heyətin peşəkarlığını şərtləndirən mühüm amillərdən biri də hərbi qulluqçuların döyüş ruhunun artırılmasıdır: "Kiçik komandirlərin, bölmədə və qruplarda olan və nümunəvi xidmətilə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların rolunu da qeyd etmək yerinə düşər. Gizir Hacı Məmmədov, baş çavuşlar Vüsal Hüseynli, Xalid Abdurrəhmanov, Hidayət Cəfərov, çavuşlar Turan Atakişiyev, Namiq Osmanov və Fərhad Əzizli bölmənin nümunəvi xidməti ilə fərqlənən hərbi qulluqçularındandırlar. Onlar kollektiv arasında möhkəm hərbi intizamın yaradılmasına, bölmənin müsbət göstəricilər qazanmasına öz töhfələrini verirlər".

Praktiki məşğələlər bölmə komandirinin müavini baş leytenant Ehtiram Şirəliyevin rəhbərliyi altında keçirilir. Baş leytenant E.Şirəliyev qeyd etdi ki, təlimlər zamanı şəxsi heyətə təhkim olunmuş xüsusi vasitələrdən düzgün istifadə qaydaları, təhlükəsizlik məsafəsinin gözlənilməsi, o cümlədən xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri öyrədilir. Bu məşğələlər hərbi qulluqçuların peşə vərdişlərinin təkmilləşdirilməsinə təkan verir.

Kapitan M.Nəzərov bölmənin ümumi fəaliyyətini təhlil edərək, verilmiş tapşırıqların icrasında əzmkarlığın ruhlandırıcı cəhət olduğunu söylədi: "Şəxsi heyət üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Hərbi qulluqçularımız bu məsuliyyəti düzgün dərk edirlər".

### Şəxsi heyətin sağlamlığının qorunması dövrün aktual məsələsidir

Şəxsi heyətin tibb təminatı və sağlamlığının qorunması həmişə diqqət mərkəzindədir. Sağlamlıq amili döyüş hazırlığına bilavasitə təsir göstərir. Xidməti vəzifələrin uğurla yerinə yetirilməsində şəxsi heyətin sağlamlıq durumu ən vacib şərtlərdəndir.



Hissə komandanlığının da ciddi nəzarətdə saxladığı sahələrdən biri tibb xidmətinin fəaliyyətidir, hansı ki, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə icra edir. Tibb məntəqəsi müasir standartlara cavab verən avadanlıqlarla təchiz olunub.

Hərbi qulluqçuların tibbi maarifləndirilməsinin önəmli olduğunu deyən tibb xidmətinin rəisi tibb xidməti kapitanı Məhəmmədəli Məmmədov bildirdi ki, qarşıda duran əsas vəzifələrdən biri şəxsi heyətin sağlamlığının möhkəmləndirilməsidir: "Hər hansı xəstəliyin yayılmaması üçün mütəmadi olaraq profilaktik işlər görülür. Şəxsi heyət hər gün müayinə edilir. Mövsüm dəyişikliyi və koronavirus pandemiyası məsuliyyətimizi daha da artırıb".

Xidmət rəisi söylədi ki, gündəlik olaraq xidmət daxilində iclas keçirilir. İclas zamanı gün ərzində görüləcək işlərin bölgüsü aparılır, aidiyyəti üzrə tapşırıqlar verilir. Hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır.

Xüsusilə bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir.

Hər gün hərbi hissənin nəzarət-buraxılış məntəqəsində hərbi hissəyə daxil olan hərbi qulluqçuların temperaturu ölçülür, infeksiyaya yoluxmaqdan qorunmaq üçün maskadan və tibbi əlcəklərdən istifadə olunması, gigiyena qaydalarına ciddi riayət edilməsi barədə məsləhətlər verilir. Həmçinin, hərbi hissənin və yataqxananın ərazisinə daxil olan bütün avtomobillər də dezinfeksiya olunur.

Gün ərzində hissənin bütün naryad növlərinə cəlb olunmuş şəxsi heyətin tibbi müayinəsi aparılır. Sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ona hərtərəfli yardım göstərilir.

Bir sözlə, bütün bu görülən işlər şəxsi heyətin səhhətinin qorunmasının etibarlı əllərdə olduğunu bir daha təsdiq edir.




### Yeməklər peşəkar aşpazlar tərəfindən hazırlanır

Hərbi hissə komandanlığının diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

Hərbi hissənin yeməkxanası şəxsi heyəti gün ərzində üç dəfə sağlam qida ilə təmin edir. Hərbi qulluqçuların milli xörəklərdən ibarət keyfiyyətli qida ilə təmin olunması üçün burada hər cür şərait yaradılıb.

Ərzaq xidmətinin rəisi mayor İlkin İslamov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili İşlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir.

Xidmət rəisi qeyd etdi ki, bütün dünyada, eləcə də ölkəmizdə yayılan koronavirus (COVID-19) pandemiyası səbəbindən hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə qidalanma zamanı hərbi qulluqçular arasında sosial məsafənin gözlənilməsinə riayət edilir. Hər qida qəbulundan sonra masaların, mətbəx qablarının və avadanlıqlarının yuyulmasına, dezinfeksiya tədbirlərinə nəzarət gücləndirilir.

Mayor İ.İslamov görülən işlərdə yeməkxana rəisi baş çavuş Aslan Aslanovun və aşpaz-təlimatçı vəzifələrini icra edən çavuş Sərdar Əsgərovun əməyini xüsusilə vurğuladı. Onların vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlar Elnar Qurbanov, Zamik Qanboyev, Alik Zeynalov, işçi-aşpazlardan Sənubər Axundova, Səlfinaz Eyvazova, Mətanət Əhmədova və Nuridə Səfərovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**baş leytenant Sadıq Rəfiyev**

3 - 2_Layout 1 14.09.2020 10:26 Page 1



# HELİKOPTER MANQASI QABAQCIL BÖLMƏDİR

Şəxsi heyətin, maddi vəsaitlərin əməliyyatların keçirildiyi rayonlara daşınması, patrul-nəzarət, axtarış-xilasetmə uçuşlarının həyata keçirilməsi, həmçinin, paraşüt-desant və xüsusi həmlə qrupları ilə birlikdə fəaliyyətlərə daim hazır olmaq Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin qarşısında duran əsas vəzifələrdir. Hazırda hərbi hissə qarşıya qoyulmuş tapşırıqların icrasına tam hazırdır.



Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayev bu gün şəxsi heyətin bütün tapşırıqların öhdəsindən peşəkarlıqla gəldiyini bildirdi. Qeyd etdi ki, hərbi qulluqçular peşə hazırlığının daha da artırılması istiqamətində hər zaman çalışır, istifadədə olan helikopterlərin daima uçuşa hazır, saz vəziyyətdə saxlanılmasını təmin edirlər.



Qəzetimizin bu sayında Eskadrilyada xidməti vəzifələrini lazımi səviyyədə yerinə yetirən helikopter manqasının fəaliyyəti haqqında məlumat vermək qərarına gəldik. Hərbi hissənin helikopter manqası cari ilin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hissə üzrə birinciliyi qazanıb. Manqa komandirinin vəzifəsini müvəqqəti icra edən mayor Ceyhun Qurbanzadə ilə əldə etdikləri müsbət nəticə və şəxsi heyətlə işin hansı istiqamətdə qurulduğu barədə söhbət etdik. O, daim tabeliyində olan hərbi qulluqçularla döyüş hazırlığının qorunub saxlanılması istiqamətində çalışdığını bildirdi. Bunun üçün şəxsi heyətlə helikopter kabinəsində planlaşdırılmış uçuş tapşırığına müvafiq olaraq məşğələlər təşkil olunur. Həmçinin, manqa komandiri qeyd etdi ki, ekipajların uçuşlara hazırlığına, uçuşların təhlükəsizliyinə, hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, uçuş heyətinin öyrədilməsinə nəzarət edir. Uçuşlara ilkin hazırlığın keçirilməsi planını tərtib etmək, planlaşdırılmış uçuş tapşırıqlarının yerinə yetirilməsinə hazırlaşmaq üçün əyani və tədris vasitələrinin siyahısını hazırlamaq onun əsas vəzifələrinə aiddir.

Bu sahənin spesifikliyini, hər an təhlükə ilə üz-üzə olduqlarını xüsusi vurğulayan mayor C.Qurbanzadə uçuşqabağı hazırlıq prosesində lazımi hesablamalar aparmağın, helikopterlərin kabinələrində ekipajlarla istənilən mümkün meteoroloji və ornitoloji şəraiti nəzərə alaraq uçuş tapşırıqlarının xüsusiyyətlərini əks etdirən məşqlər keçirməyin vacibliyini də bildirdi. Daxili Qoşunların komandanının təsdiq etdiyi illik uçuş planına uyğun olaraq, Eskadrilyanın uçuş heyətilə təlim-məşq uçuşları təşkil olunur. Uçuşa əvvəlcədən hazırlıq proseslərinə uçuş məlumatlarının hazır olması, marşrut üzrə naviqasiya elementlərinin hesablanması, tibbi yoxlamadan keçmək, helikopterin uçuşa hazırlığını yoxlamaq kimi məsələlər aiddir. Hər bir uçuş növbəsinin sonunda manqanın şəxsi heyətilə keçirilmiş uçuşların "Azərbaycan Respublikası Hava Fəzasında Əsas Uçuş Qaydaları" təlimatına əsasən müvafiq təhlillər aparılır.

Həmçinin, normativ sənədlərin tələblərinə uyğun olaraq, planlı şəkildə hərbi hissədə helikopterlərdə reqlament işləri aparılır, onlara texniki qulluq göstərilir.

Mayor C.Qurbanzadə helikopter manqasının pilotlarının peşəkarlığından danışarkən avqustun 26-dan 29-na kimi Balakən rayonu ərazisində xüsusi əməliyyatın keçirilməsinə Daxili İşlər Nazirliyinin əməkdaşları ilə yanaşı, 17074 və 17077 saylı hərbi hissələrin hərbi qulluqçularının da cəlb olunduğunu söylədi. Həmin əməliyyat zamanı hərbi hissə komandiri polkovnik Hüseyn İsmayılovun rəhbərliyi ilə beş nəfərdən ibarət şəxsi heyətin yüksək uçuş bacarığı və peşəkarlıq göstərdiyini xüsusi olaraq vurğuladı.

Şəxsi heyətdə böyük ruh yüksəkliyi və özünəinam hissi formalaşıb. Daxili Qoşunların sıralarında xidmət etməkdən qürur duyan və peşə əzmkarlığı göstərən manqanın şəxsi heyətinin fəaliyyəti təqdirəlayiqdir. Mayor C.Qurbanzadə nümunəviliyi, bacarığı, təcrübəsi ilə seçilən hərbi qulluqçulardan kapitanlar Natiq Cəbrayılov, Şəhriyar Bayramov, Emil Xasmetov, Tərlan Xəlilov, Kənan Nəsibov, Anar Qurbanov, Samir Xəlilov və Rəşad Hüseynovun adlarını çəkdi.

Professional komanda ilə xidmət edən helikopter manqasına biz də, öz növbəmizdə, aydın səma və sözün əsl mənasında, daim yüksəklərdə olmağı arzulayırıq.

**baş leytenant Nigar Ağayeva**

*Nümunəvi xidmət*

# HƏRBÇİ ŞƏRƏFİNİ UCA TUTAN GİZİR

25033 saylı hərbi hissənin nümunəvi hərbi qulluqçularından olan gizir Şamxal Lətifov qərargahda məsul icraçı-texnik vəzifəsində xidmət edir. O, 1984-cü il martın 4-də Lənkəran şəhərində dünyaya göz açıb. Orta təhsilini Lənkəran şəhəri 3 saylı orta məktəbdə alan Şamxal 2001-ci ildə həmin məktəbin məzunu olub. Elə həmin ildə dövlət imtahanından keçərək Azərbaycan Beynəlxalq Universitetinin hüquq fakültəsinə daxil olub. 2005-ci ildə hüquqşünaslıq ixtisasına yiyələnməklə bakalavr dərəcəsini bitirib. 2006-2007-ci illərdə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinin (indiki Dövlət Təhlükəsizliyi Xidməti) "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2012-ci ildən etibarən isə Daxili Qoşunların 25033 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirir. Əvvəlcə hərbi hissənin qərargahında kargüzar, 2013-cü ildən etibarən isə qərargahda məsul icraçı-texnik vəzifəsinə təyin olunub. Nümunəvi xidməti, bilik və bacarığı ilə fərqlənən gizir Ş.Lətifov hərbi hissə komandanlığı tərəfindən də müsbət xarakterizə olunur.



Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant İramin Məsimov onun haqqında danışarkən bildirdi ki, gizir Ş.Lətifov xidməti-vəzifə borclarının icrasına ləyaqətlə yanaşaraq, sənədlərin qəbulu, dövriyyəsi və qorunub saxlanılmasına hər zaman ciddi nəzarət edir. Həmçinin, daxil olan sənədlərin icrası ilə bağlı Daxili Qoşunların komandanının müvafiq direktivinin və digər rəhbəredici sənədlərin tələblərini bilir: "Gizir Ş.Lətifov cavabdeh olduğu sahədə qarşısına qoyulan tapşırıqların məsuliyyətini dərk edərək, öz nəzəri biliklərinin artırılması və praktiki fəaliyyətinin təkmilləşdirilməsi üçün daim səylə çalışır".

Vətənpərvərlik əqidəsi hər şeydən üstün olan hərbi qulluqçumuz bu gün hərbi xidmətin çətinliklərinə dözümlülük göstərərək, üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirir. Belə ki, ayıq-sayıqlığı, işgüzarlığı ilə digərlərindən seçilir, istənilən vəziyyətdə hərbçi şərəfini uca tutur. Hərbi yoldaşlıq ənənələrinin qorunmasında əlindən gələni edir, nizam-intizamı və tərbiyəsi ilə hərbi qulluqçulara örnəkdir. Xidmətə yeni gələn hərbi qulluqçulara hərbi xidmətin çətin, lakin şərəfli olduğunu, bu yolda məhrumiyyətlərə dözməyin vacibliyini bildirir.

Artıq 9 ildir ki, hərbi xidmətdə olan gizir Ş.Lətifovu tanıyan yoldaşları da bu illər ərzində onun heç dəyişmədiyini, ilk gündə olduğu kimi, öz xidmətinə məsuliyyətlə, ciddi yanaşdığını dedilər.

Hərbi xidmətin bütün çətinliklərinə baxmayaraq, döyüş hazırlığının qorunub saxlanılması üçün bütün qüvvəsini səfərbər edən və yoldaşlarına şəxsi nümunə olmağı bacaran hərbi qulluqçumuz ona göstərilən etimadı doğrultmağın önəmli olduğunu vurğulayaraq, Daxili Qoşunların sıralarında xidmət etməkdən hər zaman qürur duyduğunu sözlərinə əlavə etdi. Bacarıqlı, şəxsi heyətin hörmətini qazanan hərbi qulluqçumuza hərbi xidmətində yeni uğurlar arzulayırıq.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ QULLUQÇULARIN ADLARININ FƏXRİ KİTABA YAZILMASI MÜHÜM HƏVƏSLƏNDİRMƏ NÖVÜ VƏ ŞƏRƏFLİ ƏNƏNƏLƏRƏ EHTİRAMDIR

**Hərbi xidmətdə şəxsi heyətə tətbiq edilən həvəsləndirmələr mənəvi-psixoloji hazırlıq prosesində xüsusi rol oynayır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsinin 20-ci maddəsində qeyd olunub: "Həvəsləndirmələr hərbi qulluqçuların tərbiyə edilməsi və hərbi intizamın möhkəmləndirilməsi üçün mühüm vasitədir.**

Hər bir komandir (rəis) bu nizamnamə ilə ona verilən hüquqlar çərçivəsində tabeliyində olan hərbi qulluqçuları onların ağlabatan təşəbbüslərinə, səylərinə, rəşadətlərinə və yaxşı xidmət göstəricilərinə görə həvəsləndirməlidir.

Komandir (rəis) hiss edirsə ki, ona verilən hüquqlar tabeliyində olan hərbi qulluqçunu həvəsləndirmək üçün kifayət deyil, o, özündən böyük rəisin səlahiyyəti ilə hərbi qulluqçunu həvəsləndirmək barədə vəsatət qaldıra bilər".




Qeyd etmək lazımdır ki, hərbi xidmətdə həvəsləndirmə sistemi öz məzmununa görə çoxşaxəlidir və bu sahədə formalaşmış ənənələr, uzun illərin təcrübəsi, tərbiyə işinin xüsusiyyətləri, hərbi nizamnamələrin tələblərindən irəli gələn məqamlar nəzərə alınıb.

Həvəsləndirmənin hərbi qulluqçunun rütbəsi və kateqoriyasına uyğunluğu, onun xidmət müddəti və sahəsi, əvvəlki təşviqləri barədə məlumatların, mükafatlandırmağa əsas verən səbəblərin obyektiv xarakterizə edilməsi, layiqlilik, ədalətlilik prinsiplərinin gözlənilməsi xüsusi diqqət yetirilən şərtlərdir.

Hərbi qulluqçuların onlara tətbiq edilən həvəsləndirmələr mövzusunda maarifləndirilməsi də vacib məsələdir və bu istiqamətdə hərbi mətbuat öz töhfəsini verməlidir. Həmçinin, hərbi mətbuatın səhifələrində həvəsləndirməyə layiq görülən qabaqcıl hərbi qulluqçuların tanıdılması, onların nümunəvi xidmətinin təbliğ edilməsi də olduqca gərəklidir.

Bu yazıda İntizam Nizamnaməsində öz əksini tapan, əsgər, matros, çavuş, gizir və miçmanlar üçün tətbiq edilən həvəsləndirmə növlərindən birinə nəzər salmağı məqsədəuyğun bildim. Əlbəttə, bütün növ həvəsləndirmələr gərəkli və şərəflidir, hərbi qulluqçuların tərbiyəsinə öz ciddi müsbət təsirini göstərir. Bununla yanaşı, hər bir həvəsləndirmə növünün fərqli cəhətləri və tətbiqi qaydaları mövcuddur. Həmin cəhətlərin və qaydaların düzgün dərk edilməsi, bütövlükdə, həvəsləndirmənin tərbiyəedici, ruhlandırıcı mahiyyətini aşılayır, ona şüurlu münasibət formalaşdırır.

İntizam Nizamnaməsinin 22-ci maddəsinin "z", 28-ci maddəsinin "q" bəndlərində əsgər, matros, çavuş, gizir və miçmanlara tətbiq edilən həvəsləndirmə növü kimi onların adlarının hərbi hissənin (gəminin) Fəxri kitabına yazılması göstərilib. Eləcə də nizamnamənin 39-cu maddəsində hərbi hissənin (gəminin) Fəxri kitabına hərbi qulluqçuların adlarının yazılması qaydaları müəyyən edilib. Belə ki, hərbi hissənin Fəxri kitabına adları yazılmaqla həvəsləndirmə hərbi xidmətin axırıncı ilində olan və xidmət vaxtı əla döyüş hazırlığı göstəricilərinə nail olmuş, nümunəvi intizam və yüksək şüurluluq göstərmiş əsgər, matros və çavuşlara ehtiyata buraxılma ərəfəsində, qüsursuz xidmət etmiş müddətdən artıq xidmət çavuşları, gizir və miçmanlara isə ehtiyata buraxılanda, bu hərbi qulluqçular xidmət dövründə hərbi borclarını yerinə yetirərkən xüsusilə fərqləndiklərinə görə tətbiq olunur. Həmçinin, nizamnamənin 40-cı maddəsinin tələbinə görə, hərbi qulluqçunun adının hərbi hissənin Fəxri kitabına yazıldığı elan olunduqda ona bu barədə hərbi hissə komandirinin qol çəkdiyi tərifnamə də verilir.

Hərbi qulluqçunun adının hərbi hissənin Fəxri kitabına yazılması onun aid olduğu qoşun növü və hərbi hissənin keçdiyi şərəfli yola ehtiramla yanaşmasını tərbiyə edir, mübarizlik və fədakarlıq, ləyaqətli xidmət nümunələrinin tarixləşməsinə, şərəfli ənənələrə mənəvi bağlılığın möhkəmlənməsinə, hərbi xidmət borcuna vicdanlı münasibətin qiymətləndirilməsinə yönələn vacib həvəsləndirmə addımıdır.

Onu da xüsusi vurğulamaq lazımdır ki, hərbi qulluqçunun adının Fəxri kitaba yazılması mühüm fərqləndirici cəhət olaraq, onu silahdaşlarının, ailəsinin gözündə ucaldır, hərbi kollektivin nüfuzlu üzvünə çevirir, yeni uğurlara ruhlandırır. Belə bir təşviq hərbi qulluqçunun dünyagörüşü, mənəviyyatında da öz müsbət izini qoyur, qüsursuz hərbi xidmətin təqdirəlayiq olduğunu göstərir, şəxsi heyəti əzmkarlıq ovqatına kökləyir.

Hər bir hərbi hissənin yaradıldığı gündən indiyədək xidməti-döyüş fəaliyyətinin tədqiqatı aparılarkən fakt mənbəyi olan sənədlər arasında Fəxri kitaba da istinad edilir. Ona görə də Fəxri kitabda layiq olan hərbi qulluqçuların adlarının yazılmasına, qeydiyyatların hərbi nizamnamə ilə müəyyən edilmiş qaydada düzgün aparılmasına hərbi hissələrdə ciddi fikir verilməlidir. Şəxsi heyətlə keçirilən tərbiyə işi tədbirlərində hərbi hissənin Fəxri kitabının mahiyyəti, orada adları qeyd olunan hərbi qulluqçular haqqında məlumatların çatdırılması da məqsədəuyğundur.

**Yalçın Abbasov**

*Nümunəvi xidmət*

# TƏLİMDƏ ÇALIŞQAN, DÖYÜŞ XİDMƏTİNDƏ SAYIQ BAŞ ƏSGƏR

Təhkim olunmuş obyektlərin etibarlı mühafizəsi qarovul xidmətinin əsas məqsədidir. Bu baxımdan xidmətə cəlb olunan şəxsi heyətin cəsarətli, iradəli olması qarşıya çıxa biləcək çətinliklərin dərhal aradan qaldırılmasında çox vacibdir. Bütün bu keyfiyyətləri özündə birləşdirən bacarıqlı, cəsur hərbi qulluqçulardan biri də Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin komendant bölüyündə xidmət edən baş əsgər Məhəmməd Məmmədovdur. O, 1997-ci il oktyabr ayının 9-da Bakı şəhərində anadan olub. 2015-ci ildə Bakı şəhəri Nizami rayonundakı Vüqar Sadıqov adına 214 nömrəli tam orta məktəbi bitirib. Məhəmməd Azərbaycan Turizm və Menecment Universitetində "Menecment" ixtisası üzrə təhsil alıb.



2019-cu il iyulun 29-da Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Bakı şəhəri Nizami Rayon Şöbəsindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. İlk olaraq, Daxili Qoşunların 67987 saylı hərbi hissəsində xidmət keçib, daha sonra hərbi xidmətini davam etdirmək üçün 17072 saylı hərbi hissəyə göndərilib.

Xidmətdə müsbət xarakterizə olunur. Komandirlər tərəfindən verilən tapşırıqları vicdanla, dəqiq və vaxtında yerinə yetirən hərbi qulluqçumuz qarovul xidmətinə cəlb olunur. Baş əsgər M.Məmmədov olduqca məsuliyyətli bir vəzifəni yerinə yetirir. Bu isə öz növbəsində, hər bir əsgərdən yüksək sayıqlıq, qətiyyət və çeviklik tələb edir. Bu xüsusiyyətləri özündə birləşdirən Məhəmməd xidmət zamanı qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını dərhal yerinə yetirməyə hazırdır. Məhz bu baxımdan bölük komandiri baş leytenant Elçin Həmidov onu bacarıqlı, öz vəzifələrini dərindən bilən, verilən tapşırıqlara məsuliyyətlə yanaşan əsgər kimi xarakterizə edir.

Hər zaman təlimdə çalışqanlığı, xidmətdə əzmkarlığı ilə seçilən hərbi qulluqçumuz dəfələrlə mükafatlandırılıb.

Özünün dediyinə görə, idmana böyük marağı var. Hərbi qulluqçumuz hərbi-idman kompleksi normativlərini "əla" qiymətlərlə yerinə yetirdiyinə görə I dərəcəli "İdmançı əsgər" döş nişanı ilə təltif olunub.

Kollektivdə ünsiyyət qurmaq bacarığı olan, yoldaşlarının hörmətini qazanan baş əsgər M.Məmmədov hərbi xidmətdən sonra menecer olmaq və bu sahədə iqtisadiyyatımızın inkişafına töhfə vermək istədiyini bildirdi: "Hər bir ölkənin iqtisadi inkişafı onun güclənməsində, hərbi qüdrətinin möhkəmlənməsində vacib rol oynayır. Bu gün ölkəmizin sözügedən istiqamətdə böyük nailiyyətlərinin şahidi oluruq. Gənclərin də müxtəlif sahələrdə aparılan quruculuq işlərində iştirakına şərait yaradılıb. Dövrümüzün elə peşələri var ki, daha çox gənc mütəxəssislərə meydan verilir. Menecerlik də bu peşələrdən biridir. Mən gələcəkdə bu sahədə öz bilik və bacarığımı sınamaq istəyirəm".

Bilik və bacarığı, nizam-intizamı ilə seçilən hərbi qulluqçumuza hərbi xidmətini uğurla başa vurmağı arzu edirik.

**17072 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

4 - 2_Layout 1 14.09.2020 10:16 Page 1



# İNFORMASİYA MÜHARİBƏSİNİN XÜSUSİYYƏTLƏRİ VƏ HƏDƏFLƏRİ

Bəşəriyyət tarixində müxtəlif məqsədli və miqyaslı, ayrı-ayrı ölkələri əhatə edən, çoxnövlü texnika və silahdan istifadə olunan, fərqli hərbi-strateji, geosiyasi dəyişikliklərə yol açan, xeyli sayda insan qırğınına, əvəzsiz maddi itkilərə gətirib çıxaran müharibələr baş verib. Müasir dövrdə də müharibə faktoru dünyanın hərbi-siyasi gündəmindən çıxmayıb. Hazırda müharibənin aparılması üsulları və vasitələri müasirləşib. Bununla yanaşı, bu gün daha təkmil döyüş vasitələri ilə aparılan müharibə ilə yanaşı, informasiya müharibəsi də qlobal təhlükəsizliyə, dövlətlərin suverenliyi və ərazi bütövlüyünə qarşı əsas təhdid mənbələrindən birinə çevrilib. O cümlədən, uzaq və yaxın tarixi keçmişdə uğurla sınaqdan keçirilmiş informasiya müharibəsində yeni texnologiyaların tətbiq edilməsi onun təsir gücünü daha da qüvvətləndirib.

Müşahidələr göstərir ki, bəzi hallarda ayrı-ayrı cəmiyyətlərdə və toplumlarda informasiya müharibəsi haqqında anlayış məhduddur, onun doğurduğu fəsadlara dair təsəvvürlər yetərli səviyyədə deyil. Ona görə də informasiya müharibəsi təhlükəsi məsələsi olduqca aktualdır və ölkələr üzrə bu mövzuda ictimai diskussiyalar səngimir.

İnformasiya müharibəsi hədəfə alınan dövlətin, xalqın, yaxud hərbi-siyasi ittifaqda olan ölkələrin, eyni dini-mədəni dəyərləri bölüşən, sosial-iqtisadi inteqrasiya baxımından bir-birilə yaxın münasibətlər quran millətlərin nüfuzunu ləkələmək, müsbət imicinə xələl gətirmək, etibarını sarsıtmaq, cəmiyyətlərdə ruh düşkünlüyü aşılamaq, çaxnaşma salmaq, ictimai fikirdə çaşqınlıq yaratmaq, yalan məlumatları yaymaqla əsas məramlardan yayındırmaq, xof, təlaş, özünə güvənsizlik ab-havası formalaşdırmaq, insan kütləsinin şüuruna psixoloji basqını gücləndirmək, ideoloji təbliğat aparmaq məqsədləri üçün həyata keçirilir. Qeyd edilən məqsədlərə çatmaq üçün dövlətlərin, xalqların, cəmiyyətlərin içərisinə sızdırılan təxribatçı ünsürlərdən, kütləvi informasiya vasitələrindən, internet resurslarından, xüsusən də sosial şəbəkələrdən, ayrı-ayrı qeyri-hökumət təşkilatlarından, sosioloji mərkəzlərdən, reytinq agentliklərindən, müəyyən humanitar qurumlardan, mədəniyyət və din xadimlərindən, siyasi təsisatlardan geniş istifadə olunur.



Hərbi münaqişələr, milli, irqi, dini dözümsüzlük zəminində qarşıdurmalar ərəfəsində informasiya müharibəsi elementləri tətbiq edilməklə gərginlik ocaqları yaradılır, proseslərin dinc axarından çıxaraq, toqquşmalara, xaosa, dağıdıcı məcraya sürüklənməsi tətiklənir.

Göründüyü kimi, informasiya insan cəmiyyətinin inkişafını və dayanıqlığını tənzimləyən faktorlardan biri olmaqla yanaşı, kəskin rəqabət, habelə müharibəaparma müstəvisində təzyiq, təpki, təhrik, psixoloji üstünlük qazanmaq alətinə çevrilir.

Onu da nəzərə almaq lazımdır ki, informasiya müharibəsi ilə üzləşdikdə, bu basqıdan dayanıqlığı zəifləyən, sabitliyini itirən cəmiyyətlər üçün daha böyük təhlükələr qarşısında toparlanmaq, səfərbər olunmaq xeyli dərəcədə çətinləşir.



Təhlillər belə qənaətə gəlməyə əsas verir ki, informasiya müharibəsi ilə hədəflənən dövlət, xalq, cəmiyyət buna qarşı əks informasiya müharibəsi cəbhəsi açmalı, düşməninə, rəqibinə, məkrli qüvvələrə layiqli və tutarlı cavab verməlidir. Bu işdə ayrı-ayrı sahələri təmsil edən peşə sahiblərinin xüsusi rolu danılmaz olsa da, bütövlükdə, məsələyə dair ictimai həmrəylik, müxtəlif qurumlar arasında koordinasiya, sistemli və çoxşaxəli yanaşma, çeviklik, ardıcıllıq, məqsədyönlülük vacibdir.

Hər bir vətəndaş öz ölkəsinin fəal təbliğatçısı, milli maraqlarının müdafiəçisi, yetkin ictimai-siyasi şüur daşıyıcısı olmalıdır. Cəmiyyətdə vətənpərvərlik əqidəsinin təbliği və gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması informasiya müharibəsinə qarşı dayanıqlı ictimai sipər formalaşdırır.

Azərbaycan Respublikası öz müstəqillik tarixində daim informasiya müharibəsi ilə üzləşən dövlətlərdən biridir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başladığı ilk dövrdə və sonrakı illərdə respublikamızın ətrafında informasiya blokadası yaradılmışdı. Belə bir blokada informasiya müharibəsinin tərkib hissəsi kimi, Azərbaycan həqiqətlərinin dünyaya yayılmasını əngəlləməyi hədəfləyirdi. Ancaq dövlətimiz bu informasiya blokadasını yarmağa müvəffəq olub. Ermənistan və erməni lobbisi, düşmənimizin xaricdəki havadarları tərəfindən uzun illərdir bizə qarşı aparılan informasiya müharibəsi işğalçılıq siyasətini pərdələməyə, soyqırım, etnik təmizləmə, terror faktlarını gizlətməyə yönəlib. Azərbaycanın ötən illər ərzində hərbi-iqtisadi nöqteyi-nəzərdən güclənməsi, uğurlu xarici siyasət kursu yeritməsi, mədəniyyətimizin beynəlxalq miqyasda geniş tanıdılması, dünya azərbaycanlılarının həmrəyliyinin gücləndirilməsi, ölkəmizin sivilizasiyalararası dialoqa böyük töhfə verməsi informasiya müharibəsi cəbhəsində öz sözünü deməsinə, erməni məkrini ifşa etməsinə, xalqımızın dost və tərəfdaşlarının sayının artmasına real zəmin yaradıb.

Azərbaycana qardaş ölkə olan Türkiyəyə də qarşı Ermənistan və erməni diasporu, onların lobbiçiləri tərəfindən uzun illərdir informasiya müharibəsi aparılır. Türk xalqını "erməni soyqırımı"nda ittiham edərək, 1915-ci il hadisələri barədə dünyaya dezinformasiya yaymaqla, saxta tarix üzərində çirkin siyasi oyunlara meydan verilir. Türkiyə dövləti də informasiya müharibəsi cəbhəsində öz milli maraqlarının qorunması yönündə qətiyyət göstərir.

Müasir dövrdə, ümumilikdə, İslam dünyasına qarşı informasiya müharibəsini kəskinləşdirməyi qarşısına məqsəd qoyan qlobal dairələr, bunda maraqlı dövlətlər var. Dünya informasiya məkanında özünü açıq-aşkar büruzə verən islamafobiya təzahürləri qeyd edilənlərin təsdiqidir. İslam dünyasının tərkib hissəsi olan ölkəmiz öz xarici siyasətində və informasiya strategiyasında bu faktoru daim nəzərə alır.

İnformasiya müharibəsinin hədəfləri arasında xalqların mədəni irsinin qaralanması və özgəninkiləşdirilməsi, ayrı-ayrı cəmiyyətlərə xas olmayan həyat tərzinin, ictimai davranış modelinin təşviq edilməsi, ənənəvi ailə institutunun aşınmasına yönəlik mənfi prosesə təkan verilməsi, insanın milli mənlik şüuruna təhrif olunmuş təlqinlər vasitəsilə təsir göstərilməsi kimi məqamlar mövcuddur. Bütün bunlar hər bir dövlət üçün informasiya təhlükəsizliyinin nə qədər vacib olduğunu göstərir.

Müxtəlif qoşun növlərində hərbi xidmətin gedişində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının təşkili zamanı informasiya müharibəsi təhlükəsinə qarşı kompleks tədbirlərin görülməsi vacibdir. Bu işdə hərbi mətbuatın yerinə yetirdiyi əsas missiya isə şəxsi heyətin informasiya müharibəsi mövzusunda dolğun maarifləndirilməsidir.

**Yalçın Abbasov**

# GƏLƏCƏYİMİZİ NARKOMANİYA BƏLASINDAN QORUYAQ

Müasir dövrümüzdə cəmiyyəti düşündürən və narahat edən ən dəhşətli problemlərdən biri də narkomaniyadır. Dünya ictimaiyyətinin səylərinə baxmayaraq, hələ də narkomaniya bəlası ilə mübarizə aparmaq üçün səmərəli yollar aşkar etmək və narkomanların sayını azaltmaq mümkün olmayıb.

Narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli, külli miqdarda pul vəsaiti tələb edən bir prosesdir. Bu problemin ictimai təhlükəli olması isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və günü-gündən artır.

Narkotik vasitələrdən istifadə ailələrin dağılmasına, cinayətkarlığın artmasına, cəmiyyətdə ən böyük bəlalardan olan QİÇS (Qanda İmmun Çatışmazlığı Sindromu) xəstəliyinə gətirib çıxarır. Narkotik vasitələr insanlarda asılılıq yaratdığı üçün narkotikin vaxtı çatdıqda o mütləq qəbul edilməlidir. Narkomanın isə narkotik vasitəni almağa pulu olmadıqda o, hər cür vasitəyə, yəni oğurluğa, adam öldürməyə və digər cinayətlərə əl ata bilər.



Bəşəriyyəti düşündürən bu bəla ilə mübarizə sahəsində Azərbaycan Respublikasında da məqsədyönlü işlər aparılır.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı" təsdiq edilib.

Dövlət Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi məqsədilə Daxili Qoşunlarda Azərbaycan Respublikasının Daxili İşlər naziri tərəfindən təsdiq edilmiş 16.08.2019-cu il tarixli tədbirlər planının müvafiq bəndlərinin vaxtlı-vaxtında icrası təmin olunur.

Şəxsi heyət arasında narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi məqsədilə bütün dərəcəli hərbi qulluqçularla hər rüb əlavə məşğələ planlaşdırılıb keçirilir.

Bundan əlavə, Daxili Qoşunların hərbi hissələrinin yerləşdiyi şəhər və rayonlarda hərbi qulluqçular arasında sağlam həyat tərzinin təbliğ olunması məqsədilə səhiyyə, o cümlədən, daxili işlər orqanlarının əməkdaşları ilə görüşlər təşkil olunur, izahedici söhbətlər aparılır.

Bununla yanaşı, hərbi qulluqçuların sağlamlığının qorunmasına xidmət edən maarifləndirmə işlərinin genişləndirilməsi üçün mütəmadi olaraq Daxili Qoşunların Tibb xidmətinin həkim hərbi qulluqçuları tərəfindən hərbi hissələrdə tibbi profilaktiki işlər görülür.

Bəşəriyyətin dəhşətli bəlası olan narkomaniya ilə mübarizə nəinki dövlətin, həmçinin, bu dövlətdə yaşayan hər bir vətəndaşın borcudur.

**Mətbuat xidməti**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin "Atmaca" raketləri bu ilin sonunda silahlanmaya veriləcək

Türkiyənin ROKETSAN şirkəti tərəfindən milli imkanlar hesabına yaradılan "Atmaca" gəmi əleyhinə raketlər 2020-ci ilin sonunda Silahlı Qüvvələrin invertarına daxil ediləcək.

"Azeri Defence" saytının "Millisavunma"ya istinadən verdiyi məlumata görə, bu barədə ROKETSAN Peyk Buraxma,



Kosmos Sistemləri və Qabaqcıl Texnologiyalar Araşdırma Mərkəzi ilə Partlayıcı Xammal İstehsalat Birliyinin açılış mərasimində bildirilib.

"Atmaca"nın Türkiyə Hərbi Dəniz Qüvvələrinin invertarında yer alan Amerikanın "Harpoon" raketini əvəz edəcəyi planlaşdırılıb. Səsdən sürətli "Atmaca" raketi qatı yanacaqla işləyən turboreaktiv mühərriklə təchiz edilib. Raketin atış uzaqlığı 200+ km, çəkisi 800 kq-dır.

"Atmaca" gəmi əleyhinə raketin avtomatik tuşlanan başlığını və radiolokasiya sistemini ASELSAN şirkəti hazırlayıb.

### İsrail Vyetnamın Sovet istehsalı T-54 tanklarını təkmilləşdirib

İsrail Vyetnam ordusunun arsenalında olan Sovet dövründən qalmış T-54 tanklarını təkmilləşdirib.

Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, yeni təkmilləşdirilmiş tanklar T-54M3 kimi müəyyənləşdirilib.

Bildirilir ki, təkmilləşdirmə İsrail və



Vyetnam arasında imzalanmış hərbi əməkdaşlıq razılaşması çərçivəsində həyata keçirilib.

### "Dozor-B" zirehli maşınlarının 2021-ci ildə seriyalı istehsalı başlayacaq

Ukraynanın A.A.Morozov adına Xarkov Maşınqayırma Konstruktor Bürosu (HKBM) tərəfindən 2021-ci ildə "Dozor-B" zirehli maşınlarının seriyalı istehsalına başlanılması planlaşdırılıb. Bu barədə



"Azeri Defence" saytı "Uprom.info" portalına istinadən məlumat verib.

Ukrayna Silahlı Qüvvələrinin ehtiyaclarını qarşılamaq məqsədilə istehsal ediləcək "Dozor-B" zirehli maşınlarının sayı barədə məlumat verilməyib.

4×4 təkər formuluna malik "Dozor-B" maşınları təyinatından asılı olaraq zirehli transportyor, sanitar, komanda-qərargah, kəşfiyyat-dozor və digər konfiqurasiyalarda hazırlana bilir.

## Həkim məsləhəti

# PANDEMİYA DÖVRÜNDƏ B QRUPU VİTAMİNLƏRİNƏ EHTİYAC NƏDƏN YARANIR VƏ ONLARI NECƏ ƏLDƏ ETMƏLİ?

B qrupu vitaminləri infeksiyanın qarşısını alaraq immun sistemini möhkəmləndirir. Ona görə pandemiya zamanı onları kifayət qədər qəbul etmək xüsusən vacibdir.

Orqanizmin yeni növ koronavirus infeksiyasına və digər virus hücumlarına qarşı davamlı olmasını təmin etmək üçün ən yaxşı yollardan biri immun sistemini gücləndirən qida qəbuludur. Koronavirus əleyhinə dərmanların olmaması baxımından bu üsul hələlik pandemiya zamanı infeksiyanın qarşısının alınmasında yeganə üsul olaraq qalır. **AZƏRTAC** "Medikforum" informasiya portalına istinadla xəbər verir ki, bu günlərdə Hindistanın Qida Təhlükəsizliyi və Standartlaşdırma İdarəsi (FSSAI) sinir sisteminin və immunitetin sağlam fəaliyyətinin təmini üçün vitaminlərlə zəngin məhsullardan istifadə etməyi rəsmən tövsiyə edib.



B kompleksinə tiamin (B1), riboflavin (B2), niasin (B3), pantoten turşusu (B5), piridoksin (B6), biotin (B7), fol turşusu və ya folat (B9), kobalamin (B12) daxildir.

Qeyd olunan vitamin kompleksi qırmızı qan hüceyrələrinin (eritrositlərin) yaranmasını təmin edir, beyinin və sinirlərin normal işləməsinə imkan yaradır, enerji səviyyəsini artırır, ürək-damar sistemini möhkəmləndirir, həzmi yaxşılaşdırır, əzələləri yaxşı vəziyyətdə saxlayır, hormonların və xolesterinin sintezini normallaşdırır.

B qrupundan olan vitaminlərin çatışmaması anemiyaya, infeksiyalara, mədə-bağırsaq traktı, dəri, periferik neyropatiya ilə bağlı problemlərə meyilliliyi artırır.

**B vitaminlərini əldə etmək üçün qida mənbələri aşağıdakılardır:**

Göy-göyərti və yaşıl yarpaqlı tərəvəzlər folatın ən mühüm mənbələrindən biridir. Yumurta saçın, dərinin və dırnaqların yaxşı vəziyyətdə olmasını hərtərəfli təmin edən biotindir. Paxlalı bitkilər böyük miqdarda fol turşusu ilə yanaşı, tiamindən, riboflavindən, pantoten turşusundan, piridoksindən (daha orta dozalarda) ibarətdir. Qoz B qrupu vitaminləri ilə birlikdə orqanizmi mis, fosfor, manqan, E və D vitaminləri ilə təmin edir.

Qızılbalıqlar fəsiləsindən olan balıqların tərkibində çoxlu omeqa-3 yağ turşuları, riboflavin, niasin, piridoksin və kobalamin də daxil olmaqla bir neçə növ digər vitaminlər var.

## Allah rəhmət eləsin

16076 saylı hərbi hissənin şəxsi heyəti **gizir Mirpaşa İsmayılovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000